Eldar Qəmərli,
Əli Bayramlı Şəhər Mədəniyyət və Turizm Şöbəsinin inspektor əvəzi

# SƏN VƏ MƏN

Yaman gec rast gəldik bir-birimizə,
Mən evli kişiyəm, sən subay qızsan.
Mən ayaq altında qara torpağam,
Sən sonsuz səmada parlaq ulduzsan.

Mən qoca bir dağam dumanlı, çisli,
Sən bir şəlaləsən bahar nəfəsli,
Mən ahlı, naləli, sən şaqrar səsli,
Mənimlə, əlbəttə, peyman qılmazsan.

Qabaqda gözləyir səni xoş ömür,
Mənim sınıq könlüm heç vaxt düzəlmir,
Mən çoxdan çürümüş paslı bir dəmir,
Sən hələ bərq vuran parlaq almazsan.

Mən poza bilmirəm adəti, dəbi,
Sən gərək olasan özgə nəsibi,
Mən bir az yorğunam, bir az əsəbi,
Sən başdan ayağa işvəsən, nazsan.

Qəm üstə köklənib mənim kamanım,
Sənə qovuşmağa yoxdur gümanım,
Məni eşq oduna atan ceyranım,
Bəs, niyə bir dəfə yada salmazsan?!

Mən kiməm? Dünyanın yorğun yolçusu.
Sən kimsən? Yolçunun şirin arzusu.
Mən yanar ürəyəm, sən bir içim su,
Sən bir içim suyu mənə qıymazsan.

Sənin gözəlliyin dillər əzbəri,
Mən şəhər içində məşhur sərsəri,
Mən öpmək istəsəm xumar gözləri,
Sən bu istəyimə razı olmazsan.

Sənin saçın qara, mənimki çaldır,
Mənim rəngim solğun, səninki aldır,
Sənin cavanlığın məni qocaldır,
Bir dəfə dərdimi xəbər almazsan.

Mənim üçün dünya boranlı bir qış,
Sənin üçün dünya isti bir yağış,
Mənim saçlarıma bəyaz qar yağmış,
Sən qar soyuğunu hələ duymazsan.

Mənim ürəyimdə məhəbbət odu,
Sənin aləmində bunlar yuxudu,
Məni qəmgin edən həzin duyğudu,
Sən həzin havalar hələ çalmazsan.

Biz ki, dayanmadıq heç vaxt üz-üzə,
Biz ki, oturmadıq heç vaxt diz-dizə,
Bəs, niyə rast gəldik bir-birimizə?
Dünyanın işindən baş çıxarmazsan.

Gün gələr mənimtək yaşa dolarsan,
Ümidsiz bir eşqə düçar olarsan.
Səhəri qızarmış gözlərlə açıb,
Üzgün fikirlərlə tənha qalarsan.
Onda belə nazla xumarlanmazsan.

Yazıq Eldar kimi yanarsan onda,
Nələr çəkdiyimi qanarsan onda,
Məni nə istəsən sanarsan onda,
O zaman sən məni dəli saymazsan,
Onda istəsən də məni tapmazsan,
Köhnə məzarlara çünki baxmazsan.

# OLMUSAN

**Mən sənə könlümü açandan bəri,
Gözə görünmürsən, qaçaq olmusan.
Səni tapmaq üçün gəzdim hər yeri,
Tapmadım, qaçmaqda qoçaq olmusan.**

**Bilmirəm bu dərdə necə dözürəm,
Deyəsən, özümü nahaq üzürəm,
Mən səni torpağın üstə gəzirəm,
Sən isə göylərdə uçaq olmusan.**

**Sənin vüsalına çata bilmirəm,
Gecələr sübhədək yata bilmirəm,
Səni ürəyimdən ata bilmirəm,
Köksümə sancılan bıçaq olmüsan.**

**Eldar hər eybinə göz yuman olub,
Səntək bivəfadan vəd uman olub,
Dillərin köhnə bir dəyirman olub,
Özün baş ağrıdan çaq-çaq olmusan.**